Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Ailə institutunun transformasiyası: müsbət məqamlar da var, mənfi hallar da



**Dünyanın müxtəlif regionlarında demoqrafik vəziyyətin mürəkkəbliyi və uyğunsuzluğu bu sahədə davranışın tənzimlənməsinin effektiv mexanizmlərinin tapılmasını aktuallaşdırır. Məsələ burasındadır ki, XX əsrin sonlarından etibarən, həm ailə həyat tərzi, həm də insanların ailə və evlilik haqqında ənənəvi təsəvvürləri əhəmiyyətli dərəcədə deformasiyaya uğrayıb.**

Dünya boyu evlilik nisbətinin azalması, boşanmaların sayının artması müşahidə edilir. Təəssüf ki, bu hala Azərbaycanda da getdikcə daha çox rast gəlinir.

**Nikah-ailə münasibətlərinin sabitliyi hər bir cəmiyyət üçün müstəsna əhəmiyyət kəsb edir**

Ailə və valideyn münasibətlərinin deqradasiyasının yaratdığı ən kəskin nəticələr Qərb ölkələrində ciddi demoqrafik problemlərə səbəb olmaqdadır. Şərqi Avropanın bütün ölkələri, Almaniya, Yaponiya, İtaliya və digərləri depopulyasiya rejimində yaşayırlar. Dünyanın 30 ölkəsində yerli əhali artıq çoxalmır. Doğuş nisbətinin azalması problemi əslində ötən əsrin əvvəllərindən müşahidə olunur. Həmin dövrdə Qərbi Avropada avropalıların demoqrafik taleyi ilə bağlı qızğın mübahisələr gedirdi. Məhz bu zaman demoqrafik proseslərdə əsas ziddiyyət yarandı: bir tərəfdən Yer kürəsinin əhalisi sürətlə artır, digər tərəfdən isə yerli əhalinin sayının azalması, yox olması təhlükəsi ilə üzləşən ölkələr meydana çıxdı.

Demoqrafik proseslərin ziddiyyətli xarakteri demoqrafları əsas demoqrafik təhlükəni Yer kürəsinin insanlarının həddən artıq çoxalmasında görənlərə və əhalinin azalmasından xilas olmaq üçün yollar axtaranlara ayırdı. Amma bu gün dünyanın demoqrafik cəhətdən çiçəklənən ölkələrində də demoqrafik deformasiyalar müşahidə olunur. Buna misal olaraq Hindistanı, Çini göstərmək olar, bu ölkələrdə selektiv abort əhalinin gender strukturunun tarazlığının pozulmasına səbəb olub. Digər tərəfdən müasir cəmiyyətdə gedən modernləşmə prosesləri nikah-ailə münasibətləri sahəsinə də təsir edir. Elə Azərbaycanda da müasir demoqrafik vəziyyətin xarakterik xüsusiyyəti nikah davranışında əhəmiyyətli dəyişikliklərdir. Bu dəyişikliklər nikah yaşının artırılmasına, bəzən nikaha daxil olmaqdan ümumiyyətlə imtinaya və nikah münasibətlərinin müxtəlif modellərinin qəbul edilməsinə münasibətin dəyişməsinə aiddir. Dəyişikliklərin nə qədər uzunömürlü olduğunu, mövcud informasiya bazasına əsaslanaraq nikahlara münasibətdə nəsillərin dəyişməsini izləmək mümkün olub-olmadığını öyrənmək bu mənada vacibdir. Təəssüf ki, ölkədə nikahlar və boşanmalar nisbəti getdikcə azalır. Azərbaycanda boşanmaların sayı artır. Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən bu ilin yanvar-iyulunda 29 191 nikah və 12 610 boşanma halları qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 6,1-dən 4,9-a düşüb, boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb. Bundan başqa, evlilik modeli dəyişir, qeydiyyatsız nikahda olanların nisbəti artır. Araşdırmalar göstərir ki, gənclərin müəyyən bir hissəsi qeydiyyatsız nikahdadır, bəzi gənclər isə ümumiyyətlə ailə qurmaqdan imtina edirlər. Demoqrafik siyasət kontekstində gənclər arasında nikah-ailə münasibətlərinin sabitliyi və ilk qeydə alınmış nikahın dəyəri xüsusi diqqətə layiqdir. Bu baxımdan gənclərin ailə həyatına hazırlıq dərəcəsinin müəyyənləşdirilməsi vacibdir. Məlumdur ki, ailə nikah, valideynlik, qohumluq, müştərək təsərrüfat münasibətləri ilə bağlı olan insanların birliyi kimi cəmiyyətin əsas vahidi olaraq ən mühüm sosial funksiyaları yerinə yetirir. İnsanın həyatında, onun qorunmasında, şəxsiyyətinin formalaşmasında xüsusi rol oynayır, ilkin sosiallaşmanı təmin edir. Ümumiyyətlə, ailə unikal sosial təsisatdır, fərdlə dövlət arasında vasitəçidir, fundamental dəyərlərin nəsildən-nəslə ötürücüsüdür. O, ictimai inkişaf proseslərinə, işçi qüvvəsinin təkrar istehsalına, mülki münasibətlərin formalaşmasına təsir göstərmək üçün güclü potensiala malikdir.

**Cəmiyyətin təkamülü sosial institut kimi ailəyə qoyulan tələbləri dəyişir**

Müasir Azərbaycan ailəsinin inkişaf meylləri, ilk növbədə, ailənin və ailə dəyərlərinin dəyişməsinin ümumavropa prosesləri, o cümlədən onların böhran və modernləşmə aspektləri ilə müəyyən edilir. Bura sonradan evlilik, nikah qeydiyyatı olmadan birgə yaşayışların nisbətinin artması, nikahdankənar doğulmuş uşaqların yüksək nisbəti kimi məqamları aid etmək olar.

İkincisi, son illərə kimi Azərbaycanın iqtisadi və sosial sahədə apardığı islahatlar keçid iqtisadiyyatlı ölkələr üçün xarakterik olan ailə inkişafının xüsusiyyətlərini müəyyən edib. Buna nümunə olaraq doğum nisbətinin azalması, uşaqların və ailə təsərrüfatlarının sayının azalması kimi məqamları qeyd etmək olar. Üçüncüsü, Azərbaycanda ailə institutu həm patriarxal, həm də müasirlik daxil olmaqla əhəmiyyətli bir mozaika, müxtəlif modellər ilə xarakterizə olunur. Cəmiyyətin təkamülü sosial institut kimi ailəyə qoyulan tələbləri dəyişir ki, bu da öz növbəsində onun funksiyalarının məzmununda və əhəmiyyətində dəyişikliklərdə özünü göstərir. Azərbaycanda baş verən ailə institutunun transformasiyası dəyərlər sistemində, bu sistemdə ailənin yerinin və ailənin əsas funksiyalarının xarakterinin dəyişməsi ilə müşayiət olunur. Sosial liberalizm və iqtisadi yenidənqurma insanların həyatında iki əsas dəyişikliyə gətirib çıxarıb. Qadınlara iş imkanları təqdim etməklə gender bərabərliyinə nail olmaq və hər iki cinsdən olan gənclərin əmək bazarında getdikcə artan rəqabəti. Atanın çörəkpulu qazanan şəxs, ananın evdar qadın olduğu ənənəvi ailə modelini başqa ailə modeli əvəz edir. Gender rollarının paylanmasında nəzərəçarpacaq dəyişikliklər var. Getdikcə artan ambisiyaların mövcud olduğu bir şəraitdə öz həmyaşıdları ilə bərabər iqtisadi mövqelərini qorumaq üçün gənclər özlərini bütünlüklə insan kapitalını getdikcə daha çox artırmağa həsr edirlər ki, bu da, yeri gəlmişkən, cəmiyyət tərəfindən müsbət qarşılanır. Amma bu, ailə qurmaq kimi planların həyata keçirilməsində gecikməyə səbəb olur. Ailə institutunun transformasiyası şəxsi təşəbbüsü və uğur əldə etməyi dəstəkləyən cəmiyyətdə risklərdən qorunmaq üçün unikal strategiya kimi çıxış edir. Bir sıra tədqiqatçıların fikrincə, doğumun azalmasının ən dərin səbəblərindən biri həyatın ən yaxşı illərini uşaqlara qayğı göstərmək istəməməkdir. Ustənilən halda hesab edilir ki, ailə bağlı məsələlərin həlli istiqamətində dövlət tərəfindən daha geniş fəaliyyət həyata keçirilməsi, demoqraflar mənfi halların aradan qaldırılması üçün konkret həll yolları təklif etməlidirlər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**